


# Kino mədəniyyətimizin inkişafında Adil İsgəndərovun rolu

***Kinorejissor olmaq üçün A.İsgəndərova nə iki, nə də iki yüz il lazım oldu. Onun istedadı, bacarığı həm teatrda, həm də kinoda uğur qazanmağa imkan verdi. Teatrdakı işini bitirmiş hesab edənlər onu kinostudiyaya göndərdilər. A.İsgəndərov C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru oldu.***

Rəhbərlik etdiyi dövrdə "Sən niyə susursan?", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim", "Dəli Kür", "Uşaqlığın son gecəsi", "Sevil", "Şərikli çörək", "Axırıncı aşırım", "Yeddi oğul istərəm", "Gün keçdi", "Nəsimi", "Dədə Qorqud" kimi dəyərli, tamaşaçı yaddaşından silinməyən, bu günümüzə qədər maraqla baxdığımız filmlər çəkildi. Kinostudiyanın istehsal sahələrinin yenidən qurulmasında, ümumiyyətlə, milli kinematoqrafiyamızın inkişafında, kino üçün kadrların hazırlanmasında A.İsgəndərovun müstəsna xidmətləri olmuşdur. Rəhbər işə keçməzdən əvvəl "Azərbaycanfilm" nəzdində kino aktyor studiyasını açmış, özü də bu studiyanın rəhbəri olmuşdur.

Adil İsgəndərovun kinoya rəhbərliyi onun məsuliyyətini daha da artırdı. O, artıq milyonlarla kütlənin tələbinə cavab verməli idi. Təbii ki, bu işin də öhdəsindən dəyərlə gələn rejissor ilk növbədə kinostudiyanın nəzdində studiya açmaq qərarına gəldi. Bu da gələcəkdə çəkiləcək filmlərin uğurlu alınması üçün gənc istedadlı aktyorların bu studiyada çalışması idi. Bu barədə Adil İsgəndərov yazırdı: "Studiyanın yaradılması respublikamızda kino aktyorlarına tələbatın artması ilə əlaqədardır. Bu çətin sınaqda ciddi müsabiqə yolu ilə istedadlı gəncləri seçib studiyaya qəbul edirik. Üç il ərzində onlarla həm nəzəri, həm də təcrübəli məşğələlər keçirilir. Sabahın kino aktyorları incəsənətimizin tarixinə aid mühazirələri dinləyir, görkəmli aktyorlarımızın yaradıcılığını öyrənir, aktyorluq sənətinin incəliklərinə yiyələnməyə çalışırlar. Onlar kinostudiyada çəkilən filmlərin yaradılmasında da iştirak edirlər"(2). Adil İsgəndərovun 1966-cı ildə yaratdığı bu studiyaya müxtəlif peşə sahibləri də gəlirdilər. Onların arasında fəhlə, inşaatçı, tələbə, dəmiryolçu da var idi. A.İsgəndərov bu gənclərin çəkilən filmlərdə iştirakı üçün şərait də yaradırdı.

Onun teatra gətirdiyi uğurlar kino sənətinə gətirdiyi uğurlar qədər idi. Adilin yorulmadan çalışması bütün kollektiv üçün örnək idi. İlk dəfədən kinodakı çatışmazlıqları görüb onların yerini doldurmaq, yeni-yeni filmlərin çəkilməsinə mane olan səbəbləri aradan qaldırmaq kino aləmi üçün əvəzedilməz idi.

O, çox gözəl bilirdi ki, müasir tələblərə cavab verən filmlər çəkmək üçün bu tələblərə cavab verən aktyorlar yetişdirilməlidir. Belə aktyorların olması kino sənətinin gələcək inkişafı ilə çox əlaqədardır. Bütün bunları bilən Adil İsgəndərov yeni texnika ilə, bacarıqlı rejissor və operator kadrları ilə yanaşı gənc milli kino aktyorları yetişdirmək üçün səylə çalışırdı. Əgər bir zaman yeni filmlərdə kino sənətindən yaxşı başı çıxmayan adamlar da zahiri əlamətlərinə görə çəkilirdisə, indi bu qətiyyən yaramırdı.

Kino özünün inkişafı ilə yeni bacarıqlı aktyorlara möhtac idi. Bu studiyaya daxil olmaq istəyən hər bir gənc təbii ki, qoyulan şərtlərə cavab verməli idi. Onların siyasi cəhətdən məlumatlı, mədəni, bədii ədəbiyyatı və incəsənəti ürəkdən sevən gənclər olması vacib şərtlərdən biri hesab olunurdu.

Daha sonra onun səsinin, zahiri görkəminin də müəyyən rol oynaması vacib idi. Bundan əlavə həmin gənclər aktyor sənəti üçün zəruri olan bir çox cəhətlərə malik olmalı, öz duyğu və hisslərini tamaşaçıya düzgün çatdırmağı bacarmalı idilər.

Ümumiyyətlə, onu da xüsusi qeyd etmək lazımdır ki, A.İsgəndərovun yaradıcılığında başdansovdu, necə gəldi işi yox idi. A. İsgəndərovun kinoya gəlişi Böyük Oktyabr Sosialist inqilabının 50-ci ildönümü illərinə təsadüf edirdi. Təbii ki, bu münasibətlə hər bir sahədə olduğu kimi kinonun da məsuliyyəti birə on artmışdı, kinofilmlərin bir çox hissəsi məhz bu əlamətdar günə həsr olunmalı idi. 50 ildə qazandığı böyük müvəffəqiyyətlər, sovet elminin misilsiz nailiyyətləri, dostluq və qardaşlıq mövzuların da bədii və sənədli filmlərdə öz əksini tapmalı idi.

A.İsgəndərovun rəhbərliyi ilə kinostudiya yeni-yeni filmlər çəkməkdə idi. Amma bütün bunlara baxmayaraq təbii ki, o öz yaradıcılığında müasir filmlərə daha çox yer verir və verəcəkdi. A.İsgəndərov istər teatrda, istərsə də kinoda rəhbərliyi dövründə xüsusən gənclərin fəaliyyətinə şərait yaradır və diqqət ayırırdı.

"Kinostudiyamız gənc ssenaristlər, aktyor və rejissorlar yetişdirib, onları öz ətrafında birləşdirmək üçün ciddi tədbirlər görür. Bunun nəticəsi olaraq iki cavan müəllifin ssenarisi kinostudiyamızın bədii soveti tərəfindən qəbul edilmişdir. Anar Rzayevin "Torpaq, dəniz, od, səma" əsəri bu yaxınlarda istehsala buraxılacaqdır. M.Mahmudbəyovun "Svetaforda sarı işıq" ssenarisinin isə rejissor nüsxəsi hazırlanmaqdadır"(3).

**A.İsgəndərovun kinoya gəlişi 1964-cü ilə təsadüf edirdi. Təbii ki, o sıravi rejissor kimi fəaliyyətə başladı. Kinoda ilk işi bu günə qədər tamaşaçıların maraqla sevib baxdıqları "Əhməd haradadır?" kinokomediyası oldu. Bu film Azərbaycanda müasir mövzuda çəkilmiş kinokomediyadır. Filmin ssenari müəllifi gözəl yazıçımız S.Rəhman A.İsgəndərovla teatrda da birgə işləmişdi. Bir-birinin işi ilə tanış olan sənətkarlar bu dəfə də birgə uğurlu iş görə bildilər.**

A.İsgəndərovun kinoda ilk işi idi. Buna baxmayaraq o, ssenarinin verdiyi imkanlardan bacarıqla istifadə edərək müasir həyatdan danışan maraqlı komediya yarada bilmişdi. Filmin ayrı-ayrı kadrlarında sözün müsbət mənasında teatr ünsürləri də görünür. Rejissor hazır tipaj seçməkdən qaçmış, aktyorlarla gərgin işləyərək güclü, möhkəm ansambl yaratmışdır. Rejissor həmişə olduğu kimi bu dəfə də təcrübəli aktyorlardan əlavə gəncləri də bu filmə cəlb etmişdi. Bu da filmin baxılmasına ümumi maraq oyadırdı.

"Əhməd haradadır?" kinokomediyası rejissor işi cəhətincə də tamaşaçıları özünə cəlb edir. Bu vaxtadək özünü bir görkəmli teatr xadimi kimi tanıtmış SSRİ-nin xalq artisti Adil İsgəndərov bu filmi ilə sübut etdi ki, o, kino sənəti sahəsində də böyük istedada malikdir.

Onun birinci gözəl işi aktyorların seçilməsində və birdən-birə bir neçə gənc aktyorun cəsarətlə kino sahəsinə gətirilməsində özünü göstərir"(4). 1964-cü ildə lentə alınan bu filmdə A.İsgəndərov bütün milliliyi qoruyub saxlaya bilmişdi. Ayrı-ayrılıqda gənc həyatını, yaşlı adamların psixologiyasını, sonra şəhər həyatını, gənclərin həyat tərzini bütün aydınlığı ilə aça bilmişdir. Filmdəki obrazların fəaliyyətində, danışıq və ədalarında xarakterini, psixoloji aləmləri-



"Axırıncı aşırım"

ni qabarıq və canlı ifadə edən fərdi keyfiyyətlər çox qüvvətlidir. "Film uzun müddət teatr səhnəsində çalışmış və özünü istedadlı bir rejissor kimi göstərmiş Adil İsgəndərovun kino sahəsində ilk müstəqil addımıdır. Açıq demək lazımdır ki, ilk addım müvəffəqiyyətdir. Adil İsgəndərov filmdə zahiri təmtəraqdan qaçmış, süni effekt xatirinə gurultuya və hay-küyə uymamışdır. Rejissor əsəri realist planda şərh etmiş, hər bir epizodun sadə və həyati çıxmasına çalışmışdır.

**Rejissorun müvəffəqiyyəti, hər şeydən əvvəl bundadır ki, o, obrazların psixoloji xüsusiyyətlərini daha qabarıq şəkildə açmağa çalışmış, yeni insan tərbiyəsi məsələsini ön plana çəkmişdir"(1). İncəsənətin istər teatr, istərsə də kino sahəsində özünəməxsus yolu olan rejissor çəkdiyi ilk filmi ilə də kinoya yeni bir atmosfer gətirdi.**

A.İsgəndərov uzun müddət teatra necə xidmət etmişdisə, eyni münasibətdə də kinoya yanaşdı. Müasirliyi sevən sənətkarın yeni müasir mövzulara müraciət etməsi üçün müasir səslərin yaradılması zəruri idi. Bunun üçün A.İsgəndərov yeni kadr, yeni müəllif və ssenaristlər yetişdirmək məqsədilə kinostudiyada emalatxana açır. Gənc ssenaristlərin işləməsi üçün yaradılan şərait təqdirəlayiqdir. Bundan əlavə kinostudiyanın bütün problemləri ilə yaxından tanış olan A.İsgəndərov dublyaj sexində də xeyli iş görür.

Gənc ssenaristlərin sayını artırmaq məqsədilə kinostudiyanın nəzdində seminar təşkil edilmişdi. Bu seminarlara görkəmli ədəbiyyat və incəsənət xadimləri cəlb edilmişdi. Burada müxtəlif filmlərin müzakirəsi və gənc müəlliflərə ssenari yazmaq texnikasının sirlərinin öyrədilməsi nəzərdə tutulurdu.

Studiya kinostudiyanın nəzdində artıq bir neçə il idi ki, fəaliyyət göstərirdi. Buradakı tələbələr çəkilən bədii filmlərdə iştirak edir, əsərlərin səlist tərcüməsi, aktyor ifasına xüsusi yer verilirdi.

"Şübhəsiz ki, bir aktyor gah teatrda rol oynayırsa, gah ekrana çəkilirsə, gah dublyaj sexində və ya radio, televiziyaya tələsərsə onun yaradıcılığı keyfiyyətini itirər. Bəzən dublyajda tələsiklik nəzərə çarpırdı. Lakin son illər dublyajın keyfiyyəti xeyli yaxşılaşmışdır"(1). A.İsgəndərov sırf teatra bağlı olan bir sənətkar idi. O hətta kinostudiyada çalışsa da orada bir teatrallıq axtarırdı. "Bacarıqlı, işgüzar aktyor kadrları yetişdirmək məqsədilə "Azərbaycanfilm" kinostudiyasının nəzdində yeni teatr bölməsi açmaq nəzərdə tutulur. Burada əsas məqsəd istedadlı gənc qüvvələri təkmilləşdirməkdir. Axı teatr əsl yaradıcılıq məktəbidir. Sənətkar məşqdən-məşqə ustalaşmalı, təcrübə qazanmalıdır. Bu məktəb həm də aktyorlara yüksək mədəni inkişaf mərhələsi keçməkdə kömək edəcək"(2).

A.İsgəndərovun kinostudiyaya bəslədiyi münasibət teatr üçün etdiklərindən geri qalmırdı. Necə ki, onun çəkdiklərinə olan soyuq münasibət dəyişməz olaraq qalırdı. A.İsgəndərovun kinoda şəxsən aktyor kimi ifası çox maraqlı alınırdı.

Gözəl istedada malik olan rejissor aktyor kimi də peşəkar idi. Müxtəlif jestlərdə xaraktercə fərqli obrazlar yaradan A.İsgəndərov aktyor kimi də şöhrət qazandı.

Onun çəkildiyi filmlər sırasında "Qara daşlar" (1940-cı), "O olmasın, bu olsun" (1956), "Bir məhəlləli iki oğlan" (1957), "Uzaq sahillərdə"(1958), "Romeo mənim qonşumdur"(1963) və b. xüsusi maraq doğurur. Bütün bunlardan başqa 10 filmdə çəkilən A.İsgəndərov aktyor kimi də sevilirdi. 1971-ci ildə "Axırıncı aşırım" filmində Kərbəlayı İsmayıl obrazı ən yaxşı kişi roluna görə mükafat və diploma layiq görülmüşdür. A.İsgəndərovun yaratdığı obrazda haradasa öz xarakterinə uyğun cizgilər tapmaq olardı. Mərd, barışmaz, qürurlu və qeyrətli Kərbəlayı İsmayıl da A.İsgəndərovda var idi. Onu nə əyə, nə də sındıra bildilər. Sənətkarın kinostudiyadakı uğurlu xidmətləri çox ola bilərdi. Əgər zaman amansız olmasaydı. Onun çəkildiyi filmlərə indi də böyük maraqla baxılır.

Kinostudiyada iş quran Adil İsgəndərov təbii ki, bunun nəticəsini görməli idi və görürdü də. Azərbaycanfilmdə istehsal olunan bir çox dəyərli filmlər şöhrət qazanmaqda idi. Lakin Adil İsgəndərovun yaradıcılığına arxayınçılıq sözü yad olduğu üçün bu nailiyyətlərlə kifayətlənmirdi. Qurmaq, yaratmaq istəyi onu bir yerdə oturub saymağa qoymurdu. Onun kinostudiyadakı fəaliyyəti zamanı həyata keçməyən böyük arzuları da var idi. Sənətkarın ən böyük arzusu S.Vurğunun "Vaqif" dramını ekranlaşdırmaq idi: "Uzun illərdir ki, məni bir arzu narahat edir. Bu da Vaqiflə əlaqədardır. Hələ 1938-ci ildə böyük şairimiz S.Vurğun bu gözəl əsərinin səhnə quruluşunu vermişdir. Tamaşa 800 dəfədən çox göstərilmişdir. Mən Vaqifin həyatını ekrana köçürməyi çoxdan arzulayıram"(2).

**Adil İsgəndərov istər teatrda, istərsə də kinodakı xidmətlərinə görə öz layiqli qiymətini aldı. Onun adı mədəniyyətimizin, incəsənətimizin tarixində öz yüksək yerini tutdu. Örnək olacaq gözəl sənətkar Adil İsgəndərovun xidmətləri bu gün də, sabah da, inamla deyərdik ki, gələcəkdə də həmişə hörmətlə xatırlanacaq, xoş duyğu ilə anılacaqdır.**

**● Reyhan NOVRUZOVA**

## Ədəbiyyat


1. Ağamirov. "Kommunist" qəzeti, "Əhməd haradadır?". 4 noyabr 1964.
2. Адил Искендеров, "Ждем вас, молодежь!" 1966.
3. Adil İsgəndərov, "Məsul vəzifələr qarşısında", "Ədəbiyyat və incəsənət" qəzeti, 9 yanvar 1971.
4. Əli Səmədov, "Əhməd haradadır?" "Sovet kəndi" qəzeti, noyabr 1964.


### Резюме


А.Искендеров - руководитель азербайджанской киностудии, имел большие заслуги в развитии кино. Именно в его период были сняты фильмы, которые мы с интересом смотрим и по сей день. А.Искендеров как актер создал болшое количесиво незабываемых образов.


### Summary


A.İskandarov - the head of azerbaijan film studio had great services in the sinema. Namely in the period of his activity were made the films that we are watching up to present with a great interest. As an actor A.İskandarov created a great number of unforgettable characters